# Ermənistanın faşist mahiyyəti ifşa edildi



2020-ci il sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci sessiyasında keçirilən ümumi debatlar zamanı Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın ölkəmizə qarşı törətdiyi ardıcıl təxribatlarla regionda sülh, sabitlik, inkişaf əleyhinə yönəlmiş mənfur niyyətlərini faktlarla açıb göstərdi.

**Ermənilər məscidlərimizdən tövlə kimi istifadə edirlər**





**Şuşa məscidləri**



**Ağdam məscidi**



**Füzuli məscidi (İşğaldan azad olunub)**

Mən bir daha Prezidentimizlə fəxr etdim, onunla qürur duydum. Doğrudur, bu tribunadan Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı bir çox siyasətçilər çıxış etmişdilər. Amma hələ indiyə kimi dünyanın ən nüfuzlu təşkilatı olan BMT tribunasından Ermənistanın faşist mahiyyəti bu qədər qətiyyətli, açıq və sistemli şəkildə ifşa edilməmişdi. Prezidentin xüsusilə Ermənistan və Qarabağdakı tarix və mədəniyyət abidələrinin məhv edilməsini vurğulaması bu ərazilərdə uzun müddət tədqiqat aparmış memar kimi məni çox təsirləndirdi. Azərbaycan Prezidenti bununla bağlı çıxışında dedi: “Bugünkü Ermənistan ərazisində Azərbaycana məxsus mədəni miras dağıdılıb və talan edilmişdir. Ermənistan işğal edilmiş ərazilərimizdə də Azərbaycanın tarixi və dini abidələrini dağıtmışdır. Məqsəd isə orada azərbaycanlıların bütün izlərini silməkdir”.

Yeri gəlmişkən, qeyd edim ki, 1980-ci ildən bu günə qədər (40 ilə yaxın) Qarabağ, Qərbi Azərbaycan (indiki Ermənistan respublikası), o cümlədən Gəncə, Göygöl, Goranboy, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Gədəbəy və Daşkəsən rayonlarına məxsus əraziləri kənd-kənd gəzib buradakı tarix və mədəniyyət abidələrini yerində tədqiq etmişəm. Araşdırmalar zamanı buradakı abidələrin hər biri üzərində erməni vandalizminin izini görmüşəm. Onlar birmənalı şəkildə saray, karvansara, körpü və xristian abidəsini rekonstruksiya edib özününküləşdirir, məscidlərdən heyvan tövlələri kimi istifadə edir (şəkil-1,2,3,4) və fürsət düşdükcə islam memarlığına aid nə varsa tamamilə yer üzündən silirlər. Bu hal Qarabağın işğalından sonra kütləvi və intensiv xarakter alıb. Lakin islam ölkələri və xüsusilə İran bu məsələyə ciddi münasibət bildirmir. Bu azmış kimi İran rəsmiləri İrəvandakı Göy Məscidi “Fars məscidi” adı altında bərpa edib və Ermənistana iqtisadi yardım göstərir.

XX yüzilliyin əvvəllərinə qədər İrəvan qalasında 8 məscid fəaliyyət göstərmişdir. İndi onların izi belə qalmamışdır. İrəvan qalasında ən qədim məscid 1510-cu ildə Şah İsmayılın əmri ilə Rəvanqulu xan tərəfindən İrəvan qalası tikilən zaman inşa olunmuşdur. 1918-ci ildə ermənilər həmin məscidə müsəlmanları dolduraraq yandırmışlar. Məscid insanlarla birgə tamamilə yanıb, külə dönmüşdür. Ümumilikdə, 1912-ci ilə qədər Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisinin İrəvan uyezdində 42, Eçmiədzində 33, Zəngəzur uyezdində 35 məscid fəaliyyət göstərmişdir. Hazırda bu məscidlərin heç biri qalmayıb və hamısı ermənilər tərəfindən dağıdılmışdır. Bununla da rahatlaşmayan erməni faşistləri otuz ilə yaxındır ki, Azərbaycanın Qarabağ bölgəsini və ətraf 7 rayonu işğal altında saxlayır. Ölkəmizin belə səbr göstərməsindən sui-istifadə edən erməni hərbçilər keçən bazar günü (27 sentyabr 2020-ci il) atəşkəsi yenidən pozaraq Azərbaycan ərazilərinə hücum etdi. Tezliklə erməni faşistlərinin son aqibəti də alman faşistlərinin aqibəti kimi olacaq. Və mən inanıram ki, cənab Prezident, Ali Baş Kamandan İlham Əliyevin rəhbərliyi altında şanlı və igid Azərbaycan Ordusu tezliklə düşmən üzərində qələbə çalacaq, üçrəngli bayrağımız Qarabağın ən uca zirvəsində dalğalanacaq!

***Rizvan QARABAĞLI,***
***memarlıq üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan.- 2020.- 1 noyabr.- S.7.